# Sərdar Fərəcov: "Yaradıcılıqda millilik böyük önəm daşıyır"...

**Avropada simfonik musiqinin tarixini 15-16 əsrə təsadüf edirlər. Yəni bizdən 4-5 əsr əvvəl yaranıb. Amma Azərbaycan bəstəkarlıq məktəbi Avropanın 4-5 əsrə qət etdiyi yolu 40-50 ilə keçdi və az zamanda gözəl əsərlər meydana gəldi. Yzeyir Hacıbəylinin, Qara Qarayevin, Fikrət Əmirovun çox gənc yaşlarında yazdığı əsərlər dünyanı mat qoydu. O gənc bu gün niyə yoxdur? Bəlkə not qurtarıb, gənclər tapa bilmirlər?**



Sualımızı cavablandıran tanınmış bəstəkar, Xalq artisti Sərdar Fərəcov bildirdi ki, bu gün düyanın musiqi mənzərəsi 60-70 il əvvəlkindən çox fərqlildir.

"Bunu həm zənginlik, həm də qarışıqlıq adlandırmaq olar. Və gənc bəstəkar ilk addımlarını atan kimi qarışıq mənzərə ilə rastlaşır. Çox vaxt da bu qarışıqlıqda özünü itirir",- deyən xalq artistinin sözlərinə görə, bunun üçün mütləq klassik musiqini bilmək lazımdır:

"Bilirsinizmi, müasir musiqiinin də öz klassikası var. Şostakoviç müasir musiqinin ən görkəmli nümayəndəsi sayılır. Əgər Şostakoviçin musiqisi  Bethovenin vaxtında da səslənsəydi maraqla qarşılanardı. Çünki onun əsərlərində kamillik var, klassik özülün üstündə yaranıb. Amma elə əsərlər var ki, müasir musiqidir, amma qocalıb... Ondansa 300 il bundan əvvəl bəstələnmiş Baxın musiqisi daha təravətlidir. Musiqinin həmişə yaşar olması üçün əbədiliyin cövhərini duymaq lazımdır. 22 yaşlı o zaman şedevr əsər yaradır ki, öz istedadını düzgün istiqamətə yönəldir".

"Mən Ayaz Qəmbərlinin əsərlərini təqdir etmək istəyirəm. O cüsmlədən Tahir İbişovun əsərlərinə də simpatiyam var. Lakin onların da yaradıcılığında ardıcıllıq görmürəm. Bir gün bir üslübda, sabah başqa üslubda yazırlar. Hələ özlərini tapmayıblar. Mən bəzən gənclərimizin millilikdən uzaqlaşmasından narahatçılıq keçirirəm. Çünki 30 il əvvəl bütün qapılar bağlı olduğuna görə gənclərin informasiyası az idi. Amma indi gənclər asanlıqla xarici ölkələrə gedə bilirlər. Xaricə gedəndən sonra da onlar kimi yazmağa çalışırlar. Ümumiyyətlə, yaradıcılıqda millilik böyük önəm daşıyır. Yəni azərbaycanlı bəstəkarın musiqisindən mütləq Azərbaycan ətri gəlməlidir. Bu gün bütün dünya Stravinskinin "Petruşka"sına böyük məmnuniyyətlə qulaq asır. Nəyə görə, xalis rus musiqisidir, bununla belə bəşəri musiqidir. Fikrət Əmirovun musiqisi son vaxtlar tez-tez Azərbaycana təşrif buyuran xarici orkestrlər tərəfindən ifa olunur. Çox valeh olurlar bu musiqiyə.

Qara Qarayevin, Arif Məlikovun baleti dünyada Çaykovski səviyyədə qəbul edilir. İnsan ilk növbədə öz anası, bacısı və qardaşı ilə dil tapıb danışa bilmirsə, başqası ilə necə danışacaq. Bu gün dünyada elə festivallar var ki, başqa millətlərin bəstəkarlarını ora cəlb edib, ideyaların özünüküləşdirib öz musiqilərini inkişaf etdirirlər. Ona görə də, gənclərimiz bir az ehtiyatlı olmalıdırlar".

**İltifat HACIXANOĞLU**

ədalət.- 2021.- 21 avqust.- S.8.